**İSTİFADƏ ŞƏRTLƏRİ VƏ QAYDALAR**

## 1. Giriş

Bu İstifadəçi şərtləri və qaydalar (bundan sonra "Şərtlər") “Advera” MMC-nin (bundan sonra “AdGo”) mülkiyyətində olan adgo.az internet səhifəsində (bundan sonra "Platforma") xidmətlərin göstərilməsi üzrə ümumi şərtləri və məxfiliyə dair normaları müəyyən edir. Platformaya daxil olmaq və istifadə etmək bu Şərtlərin qəbul olunduğu və onlarla razılaşaldığı anlamına gəlir. İstifadə şərtləri razılıq olmadığı təqdirdə Platformadan istifadə etməmək tövsiyə olunur.

## 2. İstifadə edilən anlayışlar

**2.1.** **İstifadəçi** – Platformaya daxil olan, qeydiyyatdan keçməklə şəxsi kabinet yaradan və ya Platformanın funksiyalarından istifadə edən istənilən fiziki və ya hüquqi şəxs.

**2.2.** **Şəxsi kabinet** - İstifadəçinin Platformada qeydiyyatdan keçməklə əldə etdiyi, autentifikasiya vasitəsilə daxil olduğu və fərdi məlumatlarının, hesab parametrlərinin, bildirişlərinin, xidmət tarixçəsinin və digər funksionallıqların idarə olunduğu fərdi idarəetmə bölməsi;

**2.3.** **Xidmətlər** - açıq hava və qapalı məkanlarda reklam yerləşdirmək istəyən fiziki və hüquqi şəxslər üçün reklam materiallarının yerləşdirilməsi, buna dair müvafiq qurumlarla əməkdaşlıqların qurulması, icazələrin alınması  və bununla əlaqədar digər hərəkətlərin məcmusu;

**2.4.** **Fərdi məlumatlar** - şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat;

## 3. Sifariş prosesi

**3.1.** Reklam xidmətlərinin göstərilməsi üzrə Platforma üzərində sifariş prosesi aşağıdakı mərhələlərdən ibarətdir:




### 3.2. Qeydiyyat və ya hesaba daxilolma

3.2.1. İstifadəçi Platformada sifariş vermək üçün müvafiq məlumatları təqdim etməklə qeydiyyatdan keçərək “Şəxsi kabinet” yaratmalıdır.

3.2.2. İstifadəçi daxil edilən fərdi məlumatların düzgünlüyünə, həqiqiliyinə və tamlığına təminat verir və bu təminatlara, fərdi məlumatların təhlükəsizliyinin, məxfiliyinin təmin edilməməsinə, üçüncü şəxslərə verilməməsi (ötürülməməsi) ilə bağlı tədbirlər görülməməsinə, əsassız və həqiqətə uyğun olmayan məlumat verilməsinə görə məsuliyyət daşıyır.

3.2.3. İstifadəçi anlayır və qəbul edir ki, "Şəxsi kabinet"in yaradılması, ləğvi, həmçinin fərdi məlumatların yerləşdirilməsi, yenilənməsi və ləğvi zamanı AdGo-nun tələb etdiyi zəruri hərəkətlərin (təsdiqləmələrin) edilməsi; təqdim edilən mobil nömrəyə SMS vasitəsilə göndərilmiş məlumatın (bildirişin, sualın, kodun və s.), təqdim edilən elektron-poçt ünvanına göndərilmiş məlumatın (bildirişin, sualın, kodun və s.) tələb edilən qaydada təsdiqlənməsi, habelə bu məqsədlə AdGo tərəfindən təmin edilən digər texnoloji (texniki) vasitələrin köməyi ilə müvafiq hərəkətlər (təsdiqləmələrvə s.) İstifadəçiyə məxsus şəxsi imzanın analoqu kimi qiymətləndirilir və İstifadəçinin şəxsi imzası ilə eyni hüquqi qüvvəyə malikdir.

### 3.3. Reklam yerinin seçimi və gözləmə

3.3.1. İstifadəçi Reklamın ünvanı, növü, yerləşməsi, ölçü spesifikasiyalarının əks olunduğu paneldən müvafiq sahəni seçmək hüququna malikdir.

3.3.2. İstifadəçi tərəfindən reklam sahəsinin seçilib səbətə əlavə edilməsindən sonra qəbul edilən sifariş **"Gözləmədə"** statusuna keçirilir və İstifadəçiyə bu barədə müvafiq bildiriş göndərilir.

3.3.3. AdGo tərəfindən sifariş təsdiq edilənədək **"Gözləmədə"** statusunda olan reklam sahəsinin digər şəxslər tərəfindən təkrar sifarişi Platforma tərəfindən məhdudlaşdırılır.

### 3.4. Sifarişin təsdiqi və ödənişin aparılması qaydası

3.4.1. Qəbul edilən sifarişlər AdGo tərəfindən analiz edilərək **"Təsdiqlənmiş"** statusuna alınır və bu barədə İstifadəçinin elektron poçt ünvanına təsdiq məktubu göndərilir.

3.4.2. Sifarişin təsdiqlənməsindən əvvəl xidmətlərin dəyəri Platforma tərəfindən qəbul edilən ödəniş metodları ilə həyata keçirilir (bank transferi, onlayn ödəniş və s.).

3.4.3. İstifadəçi yalnız sifarişi təsdiqləndikdən sonra reklam kampaniyasına başlamaq hüququna malikdir.

## 4. İstifadəçinin məsuliyyəti

**4.1.** İstifadəçi təqdim etdiyi reklam materiallarının məzmunun qanunvericiliyə və etik normalara uyğunluğuna görə birbaşa məsuliyyət daşıyır.

**4.2.** İstifadəçi reklam məzmunu üzərində bütün hüquqlarına sahib olmalı və üçüncü tərəflərin mülkiyyət hüquqlarını pozmamalıdır.

**4.3.** Platforma İstifadəçi tərəfindən təqdim edilən reklamın məzmununun düzgünlüyü və qanuniliyi ilə bağlı məsuliyyət daşımır.

## 5. AdGo-nun hüquqları

5.1. AdGo İstifadəçinin sifarişindən biznes maraqları və yaxud qanunvericiliyin tələbləri ilə əlaqədar imtina etmək,

5.2. AdGo İstifadəçinin hesabını qanunvericiliyə zidd davranışlar və ya bu Şərtlərin pozulması səbəbindən bağlamaq,

5.3. AdGo İstifadəçiyə əvvəlcədən məlumat verməklə hər hansı bir reklam sahəsini və ya sifarişi dəyişdirmək və ya təxirə salmaq hüququna malikdir.

## 6. Məlumatların toplanması və emalı

6.1. AdGo Azərbaycan Respublikası qanunvericiliyi, eləcə də Şərtlərin müddəalarına müvafiq olaraq istifadəçilərin analitik və fərdi məlumatlarının toplanma və emalını həyata keçirir.

6.2. AdGo aşağıdakı məqsədlər üçün İstifadəçi məlumatlarının toplanması və emalını həyata keçirir:

- İstifadəçinin identifikasiyası;
- Şikayətlərin araşdırılması, xidmətlərdən sui-istifadənin qarşısının alınması, məlumat, sistem və şəbəkə təhlükəsizliyinin təmin edilməsi;
- Anonimləşdirilmiş məlumatlar əsasında statistik və digər araşdırmaların aparılması;
- Xidmət keyfiyyətinin yaxşılaşdırılması, istifadə prosesinin optimallaşdırılması və yeni xidmətlərin təklifi.

6.3. İstifadəçi Plaformadan istifadə etməklə fərdi və analitik məlumatlarının toplanması və emalına razılıq vermiş hesab olunur.

## 7. Əqli mülkiyyət və müəlliflik hüquqları

Bütün elementləri ilə birlikdə vahid bir sistem olan bu Platformadakı məlumatlar, mətnlər, informasiyalar, dizayn, markalar və/ və ya loqolar AdGo-ya məxsusdur və onun icazəsi olmadan hər hansı bir əməliyyatla və ya hər hansı digər vasitə ilə qismən və ya tamamilə çoxaldıl və yeniden emal edilə bilməz. Əks halda bu, müəllif hüquqlarının pozulması hesab olunur.

## 8. Yekun müddəalar

8.1. AdGo İstifadəçiyə xəbərdarlıq etmədən istənilən vaxt bu Şərtlər də daxil olmaqla bu saytda yerləşdirilmiş və ya bu saytla əlaqədar məzmuna, materiallara və ya məlumatlara dəyişikliklər və ya düzəlişlər etmək hüququnu özündə saxlayır. AdGo istənilən vaxt mövcud versiyanı yeniləməklə hazırkı İstifadə şərtlərini yenidən nəzərdən keçirə bilər.

8.2. Bu Şərtlərdə əhatə olunmayan münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tənzimlənir və təfsir olunur.

## 9. Əlaqə

9.1. İstifadəçi hər hansı bir sual və ya məlumat ilə əlaqədar aşağıdakı əlaqə vasitələri ilə müraciət edə bilər.

- **E-poçt ünvanı:** [email@example.com]
- **Telefon:** [+994 XX XXX XXXX]